# Azərbaycan diasporu beynəlxalq münasibətlərin möhkəmlənməsində əsas faktordur

**Sərhədlərindən kənarda da vətəndaşları olan dövlətlər diasporları mühüm faktor hesab edirlər. Diasporlar dünyanın demək olar ki, bütün regionlarında xarici siyasətin əsas elementidir. Onların sayı, müxtəlifliyi və fəallığı XXI əsrin əvvəllərində mühüm dərəcədə artmışdır.**

Bu, "dünyanın diasporlaşması" barədə danışmağa imkan verir. Milli diasporlar bu gün transmilli şəbəkələr formalaşdırır və beynəlxalq əlaqələr sistemində xüsusi yer tutur. İki və ya daha çox ölkədə diaspor komponentinin "çarpaz" mövcudluğu gündəmdədir. Diasporun imkanlarından iqtisadi, ictimai-siyasi və digər əlaqələrin inkişafı üçün istifadə edilməsi kifayət qədər geniş yayılmışdır.

**(davamı 14-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Hazırda dünya azərbaycanlılarını birləşdirən 15 Koordinasiya Şurası fəaliyyət göstərir. 18 xarici ölkədə 29 Azərbaycan Evi açılıb, daha 10 Evin açılması ilə bağlı müzakirələr davam edir. O cümlədən xarici ölkələrdə 100-dən çox həftəsonu Azərbaycan məktəbi fəaliyyət göstərir. Hətta Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən Elm və Təhsil Nazirliyi ilə birlikdə həmin məktəblər üçün "Azərbaycan dili" kitabı nəşr etdirilib. Xaricdəki Azərbaycan icmaları ötən il ərzində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Zəfər Günü münasibətilə 50-dən çox tədbir təşkil ediblər.

Komitənin reallaşdırdığı uzunmüddətli layihələrə gəlincə isə Diaspor Gənclərinin Yay Düşərgələri, Diaspor Gənclərinin Qış Düşərgələri, Qardaşlaşmış Qarabağ Məktəblərinin (şəhid ailələrinin övladlarının diaspordan olan uşaq və gənclərlə birgə iştirakı ilə) təşkilini vurğulamaq olar. O cümlədən Liderliyin İnkişafı proqramının məqsədi xaricdəki soydaşlarımız arasında milli kimliyin qorunub saxlanılması və təşviqinə dəstək olmaq, Azərbaycan reallıqlarının dünyaya yayılması, icmalarımız və ölkəmizə dost olan digər xalqların diaspor təşkilatları ilə ikitərəfli əlaqələrin inkişafı, qarşılıqlı faydalı əməkdaşlığın qurulması işinə töhfə vermək və bu məqsədlə icma üzvlərində liderlik keyfiyyətlərini təşviq etməkdir.

Diaspor Gəncləri Şəbəkəsinin də rolunu qeyd etmək olar. "Diaspor Gəncləri 1+1" layihəsinin məqsədi ölkəmizin multikultural zənginliyini, eyni zamanda 30 illik işğal müddətində ermənilər tərəfindən törədilmiş vandalizm aktlarını, 44 günlük Vətən müharibəsi dövründə Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərini, işğaldan sonra azad olunmuş ərazilərdə sürətlə davam edən yenidənqurma və bərpa-quruculuq prosesini xaricdə geniş işıqlandırmaqdır.

"E-akademiya" layihəsi isə Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən COVID-19 pandemiyası zamanı reallaşdırılıb. Layihə çərçivəsində ABŞ, Rusiya, İsveçrə, Almaniya, Ukrayna və digər ölkələrdə yaşayan azərbaycanlılar və beynəlxalq təşkilatların nümayəndələri ilə virtual görüşlər keçirilib. Komitə tərəfindən icra olunan "Beyin qazanma" Proqramının məqsədi xaricdə yaşayan Azərbaycan əsilli mütəxəssislərin öz bilik və bacarıqlarını azərbaycanlı tələbələrlə bölüşmələri üçün Azərbaycan universitetlərində mühazirələrin, görüşlərin təşkilində və xaricdə yaşayan soydaşlarımızla yerli təhsil ocaqları arasında əlaqələrin yaradılmasından ibarətdir.

Vurğulamaq lazımdır ki, "Azərbaycan Diaspor Könüllüləri" proqramına Azərbaycan Prezidenti İlham Əliyevin 1 fevral 2019-cu ildə Azərbaycan Gənclər Gününə həsr olunmuş Respublika toplantısında söylədiyi "Mənim də tövsiyəm ondan ibarətdir ki, gəncləri dövlət təşkilatları önə çəksinlər. Çünki gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır. Bütün dövlət təşkilatlarına tövsiyə etmişəm ki, könüllüləri cəlb etsinlər" fikirlərinə əsaslanaraq start verilib. Diaspor könüllüsü olmaq istəyən 18-29 yaşlarında olan 609 nəfər müraciət edib, seçilmiş gənclər 2 ay müddətində Dövlət Komitəsində müvafiq Könüllülük proqramı keçib. Proqramın ilk iki həftəsində gənclərə könüllülük fəaliyyəti, diaspor, Azərbaycan diaspor hərəkatı haqqında ümumi məlumatlar verilib. "Azərbaycan Diaspor Könüllüləri" diaspor sahəsində dövlət siyasətinə ictimai dəstəyin təşkilində, yerli və beynəlxalq layihələrdə, diaspor gənclərinin müxtəlif ölkələrdə keçirdiyi tədbirlərdə və uyğun maarifləndirici aksiyalarda iştirak edirlər.

2024-cü ildə Komitə tərəfindən Türkdilli Dövlətlərin Gənclərinin Forumları, Xaricdəki Azərbaycanlı Alimlərin Forumları, Xaricdəki Azərbaycanlı Həkimlərin Forumları, Xaricdəki Azərbaycanlı Mühəndislərin Forumları, Xaricdəki Azərbaycanlı Tələbələrin Forumları təşkil olunub. Həmçinin ötən il diaspor təşkilatları və ayrı-ayrı icma üzvlərindən Prezident İlham Əliyevə müxtəlif mövzularda 500-ə yaxın təbrik, müraciət və təşəkkür məktubu ünvanlanıb. Diaspor fəalları ölkəmizdə bu ilin fevral ayında keçirilən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ərəfəsində sosial şəbəkədə "BİZ" platforması yaratmaqla ölkə başçısının siyasətinə həmrəylik nümayiş etdiriblər.

Sevindirici haldır ki, xaricdəki Azərbaycan icmalarının üzvləri noyabr ayında keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak edib və müasir dövrün ən mötəbər tədbirlərindən birinin ölkəmizdə keçirilməsi ilə bağlı həm bəyanat imzalayıb, həm də BMT-yə məktub ünvanlayıblar.

Dünya azərbaycanlılarının COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar bəyanatında deyilir ki, COP29-a ev sahibliyi etməyimiz ölkəmizin dünyada artan nüfuzunun bariz göstəricisi, Azərbaycanın "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamıdır. Bu məqsədlə Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bir daha sübut edir ki, qlobal ekoloji böhran şəraiti və onun cəmiyyət üçün yaratdığı problemlər, bu problemlərin həlli yolları günümüzün ən aktual məsələlərindən biridir. Sənəddə deyilir: "Təsadüfi deyil ki, bu il Azərbaycanda keçirilmiş 7 fevral növbədənkənar prezident seçkilərində xaricdə yaşayan azərbaycanlıların təşəbbüsü ilə yaradılmış "BİZ - Zəfər Yoluna Davam!" platforması xaricdəki Azərbaycan icmalarının Vətənə bağlılığının, dövlətimizin milli maraqlarının keşiyində möhkəm dayanmalarının bariz nümunəsi olmuş, Azərbaycan diasporunun siyasi yetkinliyinin, azərbaycançılıq ideologiyasına sadiqliyinin göstəricisinə çevrilmişdir".






Həmçinin qeyd olunur ki, BMT ailəsinin tamhüquqlu üzvü olan Azərbaycan sülhün və təhlükəsizliyin bərqərar edilməsi naminə yürütdüyü siyasət sayəsində dünya dövlətləri arasında layiqli yer tutur: "İnanırıq ki, ölkəmiz digər qlobal səviyyəli tədbirlərdə olduğu kimi, COP29-un da yüksək səviyyədə təşkilinə nail olmaqla, yekdilliklə ona göstərilmiş etimadı doğruldacaq, dünyada ətraf mühitin mühafizəsi, ekoloji problemlərin həlli istiqamətində mühüm irəliləyişlərə öncüllük edəcək".

Qloballaşan dünyamızın reallıqları Azərbaycan qarşısında diaspor quruculuğu sahəsində yeni vəzifələr qoyur. Xalqlar arasında sürətli inteqrasiya prosesləri, beynəlxalq siyasətdə diaspor və lobbiçiliyin artan rolu tarixi zərurətə çevrilib.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika.- 2024.- 30 dekabr (№ 290).-